# Təhsil və psixoloji inkişaf kateqoriyaları barədə yeni konsepsiyalar

Pedaqoji elmin başlıca kateqoriyalarından biri təhsildir. Təhsil kateqoriyası barədə ətraflı şərh verməzdən əvvəl bir məsələyə diqqəti çəkmək istərdik. Məlumdur ki, təhsil inkişafa, tərəqqiyə can atan insanın bütün fəaliyyətinin ən əsas qayəsinə çevrilir. Adamlar 7 yaşdan (bir sıra hallarda 5-6 yaşlarında-A.M.) təhsil almağa başlayır. Onların böyük əksəriyyəti, bizim ölkəmizdə isə sağlam adamların demək olar ki, hamısı orta ümumtəhsil alır. Onlardan bir qismi ali təhsil, o cümlədən, bakalavr və magistr təhsili, bir qismi aspirantura təhsili, bir qismi isə təhsilin son pilləsi olan doktorantura təhsili alır. Bu gün həmin pillələrdə təhsil alanlara sual verəndə ki, "təhsil nədir?" qəribə də olsa biri-birinə bənzəməyən cavablar alırsan. Biz eyni sualla ADPU-da, BDU-da, ATU-da, ADU-da, AMİM-də təhsil alan tələbələrə müraciət etdik. Əlbəttə ki, təəssüf bizi bürüdü. Çünki hərə təhsilə bir cür qiymət verirdi. Orta, orta-ixtisas və ali məktəb müəllimlərinə, hətta Təhsil Nazirliyinin bir sıra əməkdaşlarına "Təhsil nədir?" sualı ilə müraciət etdik. Aldığımız yüzlərlə yozumu, təsəvvürü, ifadə tərzini, şərhi, bir sözlə, cavabları qruplaşdırdıq. Birinci qrupa daxil olanlar: "Təhsil bilik almaq prosesidir", ikinci qrupa daxil olanlar: "Müxtəlif peşələrə yiyələnən kadr hazırlığı prosesidir", üçüncü qrupa daxil olanlar isə "Şəxsiyyətin hərtərəfli formalaşdırılması prosesidir" deməklə təhsili dəyərləndirdilərsə, onlardan heç biri təhsilə qaneedici tərif verə bilmədi. Qəribə burasıdır ki, pedaqoji kadr hazırlığı ilə məşğul olan ali məktəblərdə "Pedaqogika" fənnini öyrənən, həmin fəndən zaçot, imtahan verən, buraxılış işi hazırlayan tələbələrin də təhsilə baxışlarında müxtəliflik var idi. Biz Azərbaycan Dövlət Pedaqoji Universitetinin tələbələrilə yanaşı Bakı Dövlət Universitetinin bir qrup tələbələrinə də eyni sual əsasında müraciət edəndə belə ziddiyyətli cavabları qeydə aldıq. Belə çıxır ki, ADPU-da təhsil alan gələcək müəllimlər təhsili bir cür, BDU-da təhsil alan gələcək müəllimlər isə başqa cür başa düşür və izah edirlər.

> Pedaqoji proses, tərbiyə, təhsil və psixoloji inkişaf pedaqoji elmin ən başlıca kateqoriyaları hesab olunsa, tərbiyə, təhsil və psixoloji inkişaf kateqoriyaları isə pedaqoji proses kateqoriyasının tərkibində nəzərdən keçirilir. Ona görə ki, bütün pedaqoji kateqoriyaların hər biri ayrı-ayrılıqda pedaqoji prosesdə cərəyan edir. Ona görə də mütəxəssislər pedaqoji elmin bütün kateqoriyalarının pedaqoji prosesin tərkibində nəzərdən keçirilməsini məqsədəuyğun hesab edirlər.

Bəs, bunun səbəbi nədir? Səbəb isə birdir. Heç şübhəsiz ki, "Pedaqogika" dərsliklərində təhsilin elmi-pedaqoji izahı və ona verilən təriflərdəki qeyri-müəyyənlik. Fikrimizcə, həmin qeyri-müəyyənliklərin durulması, sahmana salınması, konkretləşdirilməsi işində yenə N.M.Kazımovun təhsillə bağlı yeni konsepsiyalarına üstünlük vermək, onlara istinad edərək təhsil haqqında müfəssəl, yığcam və obyektiv cavab vermək mümkündür.

N.Kazımov təhsili həm bir anlayış kimi, həm də pedaqoji elmin ən başlıca kateqoriyalarından biri kimi onun mahiyyəti, məqsədi ilə bağlı konsepsiyalarını birdən-birə irəli sürmür. O, özünəqədərki alimlərin, dərslik və dərs vəsaitlərinin müəlliflərinin təhsillə bağlı fikirlərini saf-çürük edir. Müqayisələr aparır və öz ağıllı ümumiləşdirmələrinə, konkret obyektiv nəticələrə gəldikdən sonra öz yeni konsepsiyaları ilə çıxış edir. N. M. Kazımov 1992-ci ildə nəşr etdiyi "Ali məktəb pedaqogikası" adlı dərsliyində yazır, ... təhsil anlayışının başa düşülməsində fikir birliyi yoxdur. Məsələn, Korolyov yazır: "Təhsil-təbiət, cəmiyyət və təfəkkür haqqındakı elmlərdə ümumiləşdirilmiş müəyyən biliklər sisteminin insan tərəfindən mənimsənilməsi prosesidir". Yaxud İ. A. Urklin təhsil anlayışını belə başa düşür: "Təhsil xüsusi seçilmiş, sistemə salınmış və təşkil olunmuş bilik vasitəsilə və adamların idrak fəaliyyətlərinin növləri vasitəsilə adama göstərilən tərbiyəvi təsirdir" (Bax: səh.22).

2002-ci ildə nəşr etdirdiyi "Məktəb pedaqogikası" dərsliyinin 95-ci səhifəsində N. Kazımov təhsil anlayışının ədəbiyyatda qoyuluşuna bir qədər də ciddi yanaşaraq mövcud dərslik və dərs vəsaitlərində təhsil anlayışına qüsurlu yanaşmaları, təhsilə verilən təriflərin səthi, birtərəfli və primitiv olması faktlarını diqqət mərkəzinə gətirərək müqayisəli şəkildə təhlil edir, onlara öz tənqidi münasibətini bildirir.

Təhsil anlayışının ədəbiyyatda qoyuluşu. Bəzi

mənbələrdə guman edilir ki, təhsil anlayışı özlüyündə aydındır və bu səbəbdən də ona tərif vermək məsələsinin üstündən sükutla keçilir.

Buna baxmayaraq, təhsil anlayışına tərif vermək təşəbbüsləri olmuşdur. Pedaqogikadan bəzi dərslik və dərs vəsaitlərində təhsil anlayışı uşaqların və ya şagirdlərin təhsili ilə məhdudlaşdırılır. Belə çıxır ki, təhsil anlayışının tələbələrə və ya yaşlılara dəxli yoxdur.

Bəzi pedaqoji mənbələrdə, əksinə, təhsil anlayışına verilən təriflər onun daşıyıcılarını heç nəzərə almır. Məsələn, bu cür mənbələrdən birində oxuyuruq: "Təhsil dedikdə sistemləşdirilmiş biliklər, bacarıq və vərdişlər nəzərdə tutulur".

Bu cür faktlardan belə bir nəticə çıxır ki, təhsil anlayışına verilən düzgün tərif təhsilin bütün iştirakçılarını əhatə etməlidir.

Anlayışa verilən təriflərdə nəzərə çarpan nöqsanlardan biri də təhsil və təlim anlayışını eyniləşdirməkdir. Məsələn, 1964-cü ildə çap olunmuş və yuxarıda adını çəkdiyimiz "Pedaqogika" kitabında təhsilə belə tərif verilir:

"Təhsil uşaqların bilik, bacarıq və vərdişlər sisteminə yiyələnməsi, bu zəmin üzərində onlarda dünyagörüşünün yaranmasıdır".

Təlim və təhsil anlayışlarının eyniləşdirilməsinə bir sıra başqa kitablarda da rast gəlmək olar.

Yuxarıda istinad etdiyimiz mənbələrin demək olar ki, hamısında təlimə verilən təriflər mahiyyətcə təhsilə verilən təriflərdən fərqlənmir. Məsələn, dərs vəsaitlərindən birində oxuyuruq: "Təlim prosesi müəllim fəaliyyətinin və şagird fəaliyyətinin mürəkkəb vəhdətidir ki, ümumi məqsədə-şagirdlərin bilikləri, bacarıq və vərdişlərlə silahlanmalarına və onların inkişafı və tərbiyəsinə yönəlir".

Bu bir həqiqətdir ki, mövcud pedaqogika dərslik və dərs vəsaitlərinin bir qismində təhsil anlayışı nəinki məhdud çərçivədə şərh olunur, hətta bu anlayış əksər hallarda təlim anlayışı və mahiyyət etibarı ilə eyniləşdirilir. Təlim anlayışı isə orta ümumtəhsil məktəblərinə şamil edilir. Başqa sözlə desək, məktəb pedaqogikasının əsas anlayışlarından biri kimi qəbul edilir. Pedaqogika dərslikləri müəlliflərinin bir qismi təhsili əgər təlim ilə eyniləşdirirlərsə, deməli, onu yalnız şagirdə şamil edirlər.

Bütün bunların heç birinə biganə qalmayan professor N.Kazımov "Məktəb pedaqogikası" dərsliyinin 76-cı səhifəsində yazır:

Təhsil və təlim anlayışlarını eyniləşdirmək halları xarici pedaqoji nəşrlərdə də vardır.

Təhsil anlayışını nəinki təlim, hətta tərbiyə anlayışı ilə eyniləşdirmək halları da müşahidə edilir. V.S.Lodnerin fikri buna misal ola bilər. O yazır: "Ontoqeniz cəhətdən şəxsiyyətin biososioloji formalaşması prosesi kimi sosial mahiyyətli təcrübənin əvvəlki nəsil tərəfindən sonrakı nəsillərə mütəşəkkil və normalaşdırılmış şəkildə verilməsi prosesi təhsildir".

Gətirilən faktlardan belə bir nəticə çıxır ki, guya təhsil anlayışının düzgün tərifi təlim və tərbiyə anlayışlarına verilən təriflərlə üst-üstə düşməlidir. Halbuki təlim, tərbiyə və təhsil anlayışları bir-biri ilə üzvi şəkildə bağlı olsalar da, onların hərəsini səciyyələndirən spesifik xüsusiyyətlər vardır.

Bir qrup mütəxəssislər (A. S. Lanqe, K. A. Jultsov və S. R. Şerbov, habelə İ. F. Xarlamov və Y. K. Babanski) təhsil anlayışını bir qədər başqa cür təsəvvür edirlər. Onların fikrincə, təhsil dedikdə gənc nəslin müəyyən elm və xüsusi biliklər sisteminə və bununla əlaqədar olan bacarıq və vərdişlərə yiyələnməsi, onda elmi dünyagörüşünün, yaradıcı qüvvələrinin inkişafı prosesi başa düşülür.

Bu fikirlə də tam razılaşmaq çətindir: çünki əvvəla, təhsil burada bilik və bacarıqların mənimsənilməsi prosesi ilə, yəni təlimlə eyniləşdirilir, ikincisi, təhsilin başqa bir vacib cəhəti-onun təlim şərt olduğu nəzərə alınır. Halbuki, təhsil təlimin bir mənada nəticəsi, digər mənada isə, şərtidir. Təlim müvafiq tədris planı, proqramları və dərsliklər əsasında cərəyan edir.

Professor N. Kazımov təhsilə belə qeyri-müəyyən yanaşmalara son qoymaq məqsədilə konkret bir kateqoriya kimi təqdim edərək onun tərifini dəqiqləşdirməyə təşəbbüs göstərmişdir. O, təhsilə tərif verməzdən əvvəl onu səciyyələndirən ən əsas xüsusiyyətlərinə diqqət yetirməyi vacib hesab edərək yazır ki, "Təhsil anlayışına düzgün, əsaslı tərif vermək üçün onu səciyyələndirən başlıca xüsusiyyətləri göstərmək lazımdır: təhsil anlayışı milli və ümumbəşəri dəyərlərlə bağlı olan biliklər, bacarıq və vərdişlər sistemini nəzərdə tutur; təhsil müvafiq tədris müəssisələrində təşkil edilir, təhsil müəyyən müddətdə də həyata keçirilir; təhsil hərəkətə gətirilənə qədər təlimin əsasında durur, təhsil hərəkətə gətirildikcə təlim prosesinə çevrilir, son mərhələdə isə təlimin nəticəsi olur; təhsil həm də inkişaf imkanlarına malikdir; təhsil xalq təsərrüfatının tərkib hissələrindən biridir".

Bu əsas xüsusiyyətlərinə görə təhsilə belə bir tərif vermək olar: xalq təsərrüfatının tərkib hissəsi kimi müvafiq tədris müəssisəsində müəyyən müddətdə məqsədyönlü, planlı, mütəşəkkil öyrədilən, tərbiyə və psixoloji imkanları olan, təlimin həm



zəruri şərti, həm də nəticəsi kimi özünü göstərən, milli və ümumbəşəri dəyərlərlə bağlı olan bilik, bacarıq və vərdişlər sistemidir.

Təhsilin məqsədi-milli və ümumbəşəri dəyərlərlə əlaqədar olan biliklərin,bacarıq və vərdişlərin mənimsənilməsi yolu ilə Azərbaycan dövlət müstəqilliyini, ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını qorumağa, respublikamızı inkişaf etmiş demokratik dövlətlər səviyyəsinə qaldırmağa qadir olan adamlar yetişdirməyə kömək göstərməkdir (Bax: Ali məktəb pedaqogikası. Səh. 22-23). Doğrudan da, əsl azərbaycanlı öz hərtərəfli və nümunəvi təhsili ilə öz xalqının, böyüdüyü vətəninin şərəfini, mənafeyini qorumağa, onun tərəqqisi naminə canından keçməyə qadir olan vətəndaş olmağa borcludur.

Professor Nurəddin Kazımov təhsilə tərif verərək onun psixoloji inkişaf imkanlarına malik olduğu qənaətinə gəlir. Əslinə qalsa istər bağçada, istər ümumtəhsil və ya ali məktəblərdə tərbiyə olunanlara, təhsil alanlara psixoloji cəhətdən yanaşmadan, onun psixoloji durumunu öyrənmədən, onun psixoloji durumunu müəyyənləşdirmədən onu nə tərbiyə edə bilər, nə də ona bilik, bacarıq və vərdişlər vermək işində müvəffəqiyyət qazana bilər. Bütün dünya pedaqoqlarının yekdil bir fikri var ki, uşağı həm fizioloji, həm psixoloji cəhətdən yalnız pedaqoji prosesdə öyrənmək mümkündür. Komenskidən tutmuş üzü bəri, bütün pedaqoqlar belə bir fikri dəstəkləyirlər ki, tədris prosesinin biliklərin qavranılmasına nail olmaq üçün öyrənənə fərdi yanaşmaqla idrak fəallığının səviyyəsini, təfəkkür tərzi-halını üzə çıxarmaq lazımdır. Pedaqoji prosesdə uşağın, yəni fərdin qavrayışı, təfəkkürü kimi psixi proseslərin vəziyyətinin öyrənilməsi nəzərdə tutulur. Əgər müəllim, tərbiyəçi uşağın hansı temperament tipinə malik olduğunu müəyyənləşdirə bilmirsə, şübhəsiz o, uşağın nə qavrama, nə də temperament tərzini müəyyənləşdirə bilməz. Deməli, uşağın temperament tipini də, qavrayışını da, təfəkkür tərzini də müəyyənləşdirmək üçün ona psixoloji cəhətdən düzgün yanaşmaq lazım gəlir. Hər hansı bir fərdə psixoloji cəhətdən düzgün yanaşılması isə onun fərdi psixi xüsusiyyətlərini, psixikasını və sonra isə fərdlərarası münasibətlərin psixologiyasını öyrənmək, üzə çıxarmaq və tənzimləmək üçün imkan yaradır.

Daha doğrusu, pedaqoji prosesdə tərbiyə olunana, təhsil alana psixoloji cəhətdən planlı, məqsədyönlü yanaşılmaqla onların inkişafına nail olmaq mümkün olur. Bu inkişaf isə psixoloji inkişafdır. Azərbaycanda elə bir pedaqoq-tədqiqatçı alim tapılmaz ki, onun əsərlərində təlim-tərbiyə prosesində uşaqların psixoloji xüsusiyyətlərinin nəzərə alınmasını məqsədəuyğun hesab etməsin. Azərbaycanın görkəmli pedaqoqlarından biri, professor Əliheydər Həşimov əksər çıxışlarında tövsiyə edirdi ki, hər hansı tərbiyə problemini ətraflı tədqiq etməkdən ötrü həmin problemin psixoloji əsaslarını öyrənmək vacibdir. Professor Fəraim Sadıxovun bu barədəki qənaəti çox maraqlıdır. O yazır:

"Qeyd etmək lazımdır ki, təlim-tərbiyə sahəsində tədqiqat aparanlar xüsusilə görkəmli pedaqoqlarımız uşaqların, yeniyetmə və gənclərin əqli, əxlaqi, mənəvi, ekoloji, estetik, etik, fiziki inkişafında, eləcə də onların idrak fəaliyyətinin yüksəlməsində, təlimə maraqlarının artmasında, təlimdə geridə qalmaların aradan qaldırılmasında psixoloji yanaşmalara böyük üstünlük vermiş, məhz bu baxımdan onların psixoloji cəhətdən öyrənilməsini vacib saymışlar. M. Mehdizadə, M. Muradxanov, Ə. Həşimov, Y. Talıbov, B. Əhmədov, Ə. Ağayev, R. Mustafayevanın əsərlərində belə yanaşmalar haqqında maraqlı fikirlər vardır. Problemin bu cəhətinə böyük diqqət yetirən alimlərimizdən biri olan N.M.Kazımov isə psixoloji inkişaf, pedaqoji elmin kateqoriyaları sırasına daxil etmişdir. Məhz onun sayəsində pedaqoji elmin kateqoriyaları bütöv bir sistem halında təqdim olunmuşdur. N. M Kazımov psixoloji inkişaf kateqoriyasından danışarkən göstərir ki, inkişaf ümumi fəlsəfi anlayışdır. Pedaqogikada isə şəxsiyyətin psixoloji inkişafı deyəndə təsəvvürün, təfəkkürün, iradənin, diqqətin və s. psixoloji xüsusiyyətlərinin inkişafı nəzərdə tutulur (Məktəb pedaqogikası, səh. 35). Məsələyə daha diqqətlə baxanda aydın olur ki, psixologiya bir elm kimi ilkin olaraq "Şəxsiyyət və fəaliyyət" problemi axarında şəxsiyyətin psixoloji xarakteristikasını, şəxsiyyətin fəaliyyətinin ümumi xarakteristikasını, şəxsiyyətlərarası münasibətlərin psixologiyasını, fəaliyyətinin ümumi xarakteristikasını (bu kontekstdə diqqəti, nitq və ünsiyyəti); ikincisi, "şəxsiyyətin idrak prosesləri" fonunda onların duyğusunu, davranışını, hafizəsini, təfəkkürünü, təxəyyülünü; üçüncüsü, şəxsiyyətin psixoloji xüsusiyyətlərini, yəni onların temperamentini, xarakterini və qabiliyyətini öyrənir və bütün bunlar isə pedaqoji prosesdə həyata keçirilir. Deməli, pedaqoji elm pedaqoji prosesi, tərbiyəni, təlimi, təhsili bir pedaqoji kateqoriya kimi qəbul edirsə, psixoloji inkişafı da bir kateqoriya kimi özünə ehtiva təbii sayılır.

Sözün əsl mənasında pedaqoji prosesdə uşağı öyrənmək üçün onun psixikasını, xüsusilə duygu-

sunu, davranışını, hafizəsini, təxəyyülünü, təfəkkürünü, hisslərini, iradəsini, diqqətini, temperament tipini, xarakterini, qabiliyyətini müəyyənləşdirmədən ona düzgün yanaşmaq mümkün deyil. Yalnız belə yanaşma zamanı şəxsiyyətin düzgün tərbiyəsinə, təlim fəaliyyətinin stimullaşmasına, elmi dünyagörüşünün formalaşdırılmasına nail olmaq mümkündür" (Bax: "Təhsil və zaman" qəzeti, №2, 2003).

Professor N. Kazımov psixoloji inkişaf haqqında fikirlərini daha lakonik şəkildə belə ifadə edir: "İnkişaf fəlsəfi anlayışdır, təbiət, cəmiyyət və təfəkkür hadisələrinə, bütövlükdə dünya proseslərinə xas olan başlıca göstəricilərdən biridir.

Burada biz inkişaf deyəndə pedaqoji mənada yalnız davranış, təsəvvür, təxəyyül, təfəkkür, diqqət, iradə, hafizə kimi psixoloji keyfiyyət və xüsusiyyətlərin inkişafını nəzərdə tuturuq.

Təlim-tərbiyə və təhsil psixoloji inkişafdan ayrılmazdır. Təlimin, tərbiyə və təhsilin hər bir anı tərbiyə olunanların və təhsil alanların psixikasına bu və ya digər səviyyədə təsir göstərir. Pedaqoji prosesdə tərbiyə olunanlara nələrin necə təsir göstərdiyini bilən müəllim (tərbiyəçi) bu cəhəti nəzərə aldıqda təlimin (tərbiyənin) səviyyəsi xeyli yüksəlir" (Bax: Ali məktəb pedaqogikası, səh.23).

Göründüyü kimi, pedaqoji proses, tərbiyə, təlim, təhsil və psixoloji inkişaf kateqoriyası N. Kazımovun elmi cəhətdən çox düzgün əsaslandırılmış konsepsiyaları timsalında cilalanmış, tənzimlənmiş və pedaqoji elmimizi zənginləşdirmişdir.

Burada belə bir sual bizi düşündürür. Bəs bütün bunlara N. M. Kazımov nəyin sayəsində nail olmuşdur? Bu suala konkret cavab vermək istəsək, deməliyik ki, hər bir elmin mövzusunu, tədqiqat sahəsini düzgün müəyyənləşdirmək lazım gəlir. Fəlsəfədə də, məntiqdə də, sosiologiyada da, psixologiyada da, təbiət elmlərində də, dəqiq elmlərdə də belədir. Əgər hər bir elmin mövzusu və tədqiqat sahələri konkret müəyyənləşirsə onun elmi strukturu, stabil şəbəkəsi ortalığa qoyulacaqdır. Bunun üçün isə yalnız və yalnız həmin elmin mayasını, nüvəsini təşkil edən metodoloji prinsiplərin düzgün müəyyənləşdirilməsi əsas götürülməlidir. Məhz N. M. Kazımov bu yolla gedərək öncə milli pedaqogikanı həm bir anlayış kimi, həm də bir elm kimi formalaşdırmaq üçün onun metodoloji prinsiplərinin düzgün müəyyənləşdirilməsinə müyəssər ola bilmişdir.

**Afət Mollayeva**